**«İnsan resurslarının inkişafına xüsusi diqqət yetirilir»**

Azərbaycan-Türk İş Adamları Birliyinin baş katibi Rəşad Rəsullu:

«Vergilər Nazirliyinin Tədris Mərkəzində müxtəlif tədbirlərin təşkili üçün normal şəraitin təmin edilməsi işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə də imkan yaradır. Belə «dəyirmi masa»ların informasiya və təcrübə mübadiləsi baxımından əhəmiyyəti xüsusilə böyükdür və Tədris Mərkəzinin fəaliyyəti Vergilər Nazirliyində insan resurslarının davamlı şəkildə inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. İnsan resursları müasir korporativ idarəetmənin vacib şərtlərindən biridir. Bu mənada, Vergilər Nazirliyinin Tədris Mərkəzinin istifadəyə verilməsi vergi xidməti orqanlarında insan resurslarının inkişafına xüsusi diqqətin olmasından xəbər verir. Mərkəzdə vergi əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi, ixtisaslarının artırılması üçün yaradılmış şərait müasir tələblərə tam cavab verir. Tədris prosesinin müasir texnoloji yeniliklər əsasında təşkilini uğurlu addımlardan biri kimi qiymətləndirirəm».